# Könülləri sözlə, mərhəmətlə fəth edən Xan qızı Natəvan

**Azərbaycan torpağı əsrlər boyu dahilərin məskəni olub, elə nadir şəxsiyyətlər yetişdirib ki, onların varlığı xalqın mənəviyyat xəzinəsində sönməz işıq, göydə yanan ulduztək parlayıb. Bu ulduzlardan biri də nuruyla dövrünü aydınladan, sözün gücü ilə qadınlığın zərafətini bir obrazda birləşdirən Xurşidbanu Natəvandır. Onun adı çəkiləndə Şuşa dağlarının əzəməti, Qarabağ çinarlarının vüqarı, ipək kimi zərif, amma dəmir qədər qətiyyətli qadın obrazı göz önündə canlanır. Qarabağın qoynunda, sıldırım dağlarla pıçıldaşan buludların himayəsində böyüyən şairə qələmi ilə deyil, qəlbi ilə yazırdı. Ürəyindən damla-damla süzülən müdrik kəlamları ilə poeziya sarayını inşa edirdi. Natəvan sevgiyə izzət, kədərə ləyaqət, cəmiyyətə maarifçilik toxumu səpir, könülləri sözlə, mərhəmətlə fəth edirdi. Xanədan soyundan gələn şairə ruhun aliliyini nə taca, nə taxta bağlayırdı, o, xalqın rifahı üçün dövlətə, sənətə sədaqətlə xidməti ucalıq sanırdı. Bu səbəbdən də həm tarixin yaddaşında, həm də xalqın qəlbində əbədiyaşardır.**



Sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsi, milli-mədəni yaddaşda lirik şair, rəssam kimi şöhrət qazanan xan qızı Natəvan 1832-ci il avqustun 6-da Şuşada dünyaya göz açmışdı. Gəlişi ilə bütün el-obanı sevindirən, "Dürrü yekta" (Tək inci) adlandırılan Natəvan hələ uşaqlıq çağlarından istedadını göstərməyə başlamışdır. Yalnız dini bilikləri mənimsəməklə kifayətlənməyən şairə dünyəvi elmlərə də dərin maraq göstərmiş, ərəb və fars dillərini mükəmməl öyrənərək Şərq poeziyasının nəhəngləri - Nizami, Füzuli və Nəvainin əsərlərindən bəhrələnmiş, bu dühaların irsindən ilham alaraq poetik düşüncə dünyasını formalaşdırmışdı. İki böyük soydan - Cavanşirlərin və Ziyadoğlu Qacarların nəslindən olan xan qızının istedadının erkən yaşlarından üzə çıxmasında Şuşanın zəngin ədəbi mühiti əvəzsiz rol oynamışdı. Şairliklə yanaşı, Natəvan incəsənətin başqa sahələri ilə də maraqlanmış, xüsusilə rəssamlıq və tətbiqi sənət sahəsində özünü peşəkar səviyyədə göstərmişdi. Onun "Gül dəftəri" adı ilə tanınan bədii tikmələri, zərif zövqünün və yaradıcı fantaziyasının parlaq nümunəsi kimi dəyərləndirilmişdir. Rəssamlıqda Natəvan daha çox mövcud obyektləri birbaşa müşahidə əsasında təsvir etmiş, real və duyğusal ahəngli əsərlər yaratmışdır. Onun "Gül", "Ağac", "Budaq", "Üzüm salxımı", "Ev", "Çiçək" kimi rəsmləri təbiiliyi, inandırıcılığı və poetik duyumu ilə seçilmişdir. Xurşidbanu Natəvan görkəmli şairə, böyük xeyriyyəçi, mesenat və fəal ictimai xadim idi. O, Qarabağın mədəni həyatına xüsusi nəfəs gətirərək Şuşada "Məclisi-üns" adlı ədəbi məclisini yaratmış və bütün xərclərini öz şəxsi vəsaiti hesabına qarşılamışdı. "Məclisi-üns" həm şairlərin, həm də ədəbiyyat və incəsənət xadimlərinin toplaşdığı, fikir mübadiləsinin aparıldığı, yaradıcılıq ruhunun yüksəldiyi mədəniyyət ocağı idi. 1845-ci ildə Mehdiqulu xanın vəfatından sonra onun bütün hüquqları o zaman cəmi 13 yaşı olan yeganə övladı Xurşidbanuya keçmişdi. Həmin vaxtdan etibarən xan qızı çiyinlərinə məsuliyyətli yük götürmüş, taleyinin erkən dövrlərindən ömrünü Şuşaya, onun abadlaşdırılmasına, şuşalıların güzəranının xoş keçməsinə həsr etmiş, "Xan qızı bulağı" adı ilə məşhur olan su kəmərinin çəkilməsi layihəsini həyata keçirmişdi. Şeir yazmağa 1850-ci illərdən başlayan şairə ilk illərdə "Xurşid" imzasını, 1870-ci ildən etibarən isə "Natəvan" təxəllüsünü götürmüşdü. Elə bu imzalardan da aydın göründüyü kimi, şeirlərini "Xurşid" kimi parlaq günəş ruhu ilə yazmağa başlayan xan qızı sonradan əsərlərini "Natəvan" təxəllüsü ilə imzalamışdı ki, bu söz onun daxili dünyasının - kimsəsizlik, lakin eyni zamanda öz gücünə və mənəvi ucalığına söykənən dərin və sirli hisslərinin ifadəsinə çevrilmişdi. Onun qəzəl janrında yazdığı şeirlər fəlsəfi dərinlik, lirik şövqlə ərsəyə gəlmişdir. Qəzəllərində məhəbbət, insani gözəlliklər əsas yer tutmuşdur. Füzuli yaradıcılığından bəhrələnən şairə dünyanın fani adlandırmışdı.

*Fəraqin ruzi-matəmdir,*
*sərasər möhnəti-qəmdir,*
*O zülfün kimi dərhəmdir,*
*mənim azad olan könlüm.*
*Baxın bu Natəvan zarə,*
*günü bəxti kimi qarə,*
*Gəzər Məcnun tək avarə,*
*mənim naşad olan könlüm.*



Bəzi ehtimallara görə, XIX əsrin siyasi gərginlikləri, həm daxili, həm də xarici müstəvidə artan təzyiqlər xan ailələrinə ciddi nəzarətə səbəb olmuş və nəticədə Xurşidbanu Natəvan Xasay xan Usmiyevlə evliliyə məcbur edilmişdi. Digər ehtimallara əsasən isə Vorontsovun şəxsi yavəri olan Xasay bəyin ailəyə Tiflisdə mülk davasında kömək etdiyi, bunun qarşılığında isə Natəvanla evlənmək istədiyi bildirilir. 1850-ci ilin payızında Xasay bəy Şuşaya gəlmiş, toy mərasimi keçirilmiş və ömrünün ən gözəl çağlarında, könül çiçəklərinin yeni açdığı bir zamanda Natəvan doğma torpağından ayrılaraq əvvəlcə Dağıstana, daha sonra isə Tiflisə köçmüşdü. Tiflisin səfalı guşələri ona yad deyildi, lakin el-obasından, doğmalarından uzaq qəriblik yaşayırdı. Buna baxmayaraq, Natəvan daxilən sınmamış, əksinə, o mühitə də öz mənəvi zənginliyi ilə rəng qatmışdı. Şairə bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə cəmiyyətlərdə maraq oyatmışdı. 1855-ci ildə oğlu Mehdiqulu, 1856-cı ildə isə qızı Fatmabikə (Xanbikə) dünyaya gəlmişdi. Natəvan kimi onun övladları da şeirə ürəkdən bağlanmış, sənətə könül vermişdilər. Oğlu Mehdiqulu "Vəfa" təxəllüsü ilə fars dilində gözəl qəzəllər yazmış, qızı Xanbikə isə əsasən ana dilində qəzəl və rübailər yaratmışdı. Beləcə, Natəvanın ədəbi irsi davam etdirilmişdi. Həyat yoldaşı Usmiyevlə birgə Natəvan bir çox vilayət və şəhərlərə səfərlər etmiş, Vladiqafqazdan Dağıstana, Şirvandan Bakıya, Gəncə və Naxçıvana qədər geniş coğrafiyada yüksəkrütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşmüş, mədəni və ictimai əlaqələrini daha da zənginləşdirmişdi.



1858-ci ildə xan qızı Bakıda şəhər hakimi Piquliyevskinin evində qonaq ikən məşhur fransız yazıçısı Aleksandr Düma ilə görüşmək fürsəti yaranışdı. Bu görüş hələ də ədəbi və mədəni tarixdə əfsanə kimi danışılır. Düma ilə şahmat oynayarkən Natəvan iti ağlı və strategiyası ilə rəqibini məharətlə məğlub etmiş, avropalı yazıçını heyran qoymuşdu. Aleksandr Düma bu unudulmaz görüşdən 1859-cu ildə Parisdə çap olunmuş üççildlik "Qafqaza səyahət" əsərində bəhs etmişdir. Kitabda yazıçının Natavana və ailəsinə duyduğu dərin ehtiramı açıq-aydın sezilir. Düma, həmçinin xan qızının xeyriyyəçilik məqsədilə Bakıdan Şıxlar kəndinə daş yol çəkdirməsi barədə məlumat vermiş, onun cəmiyyətə olan töhfələrini xüsusi vurğulamışdır. Xasay Usmiyev anasının vəfatından sonra ailəsinin təkidi ilə vətəni Dağıstana qayıtmağı qərara almış, həyat yoldaşı Xurşidbanunu da özü ilə aparmaq istəmişdi. Lakin Natəvan bu təkliflə razılaşmamış, Dağıstanda həmişəlik yaşamaq istəməmiş, 1864-cü ildə Usmiyevlə yolları ayrılrmışdı. 1869-cu ildə Seyid Hüseyn adlı şuşalı ilə ailə həyatı qurmuş, üç oğlu dünyaya gəlmişdi.

Xurşidbanu Natəvanın oğlu Mehdiqulu xanın toyu qırx gün, qırx gecə davam etmiş, bu möhtəşəm məclisə dövrün tanınmış xanəndələri, aşıqları, şair və sənətkarları dəvət olunmuşdu. Lakin toyun yaddaşlarda silinməz iz buraxmasının əsas səbəbi onun üç hissədə təşkili idi. Birinci məclisə əsilzadələr, ikinciyə sənətkarlar, üçüncüyə isə sadə və kasıb kəndlilər dəvət olunmuşdu. Adətə görə qadınlar gündüz, kişilər isə axşam gəlirmişlər. Natəvan bu toyu elə təşkil etmişdi ki, heç kim özünü kənarda və ya ikinci planda hiss etməmişdi. Ən yaddaqalan məqam isə onun səxavəti və xalqına olan sevgisiylə bağlı idi. Belə ki, xan qızı qırx gün boyunca Qarabağın kəndlərindən gələn kasıb ailələrə yemək paylamış, hər dəvətliyə bəxşiş vermişdi.

Həyatının son illəri acınacaqlı keçmişdir. Belə ki, 17 yaşlı oğlu Mir Abbasın qəfil və faciəvi vəfatı Xurşidbanu Natəvanın qəlbində sağalmaz bir yara açmışdı. Bu itki onu sarsıtmış, ruhunun dərin qatlarına qədər silkələmiş və artıq o, əvvəlki Natəvan ola bilməmişdi. Ana ürəyinin çarəsiz çırpıntıları, sonsuz həsrət və qüssə sözə çevrilərək şeirlərinə hopmuşdu. Onun bu dövrdə yazdığı misralarda ağrı-acının, qəlb yanğısının səsi duyulurdu.

*Yanar canım, oğul,*
*daim sənin nari-fərağında,*
*Neçə pərvanələr hər*
*dəm yanar şəmin ayağında.*
*Sənin hicrin odu, Abbas,*
*dəxi çıxmaz ki, canımdan,*
*Səməndər tək yanar*
*daim anan nari-fərağında.*

Oğlunun faciəvi itkisi ilə sarsılan, qəlbində sağalmaz yara gəzdirən Xurşidbanu Natəvan bu ağır dərdin yükü altında tədricən həyatdan əlini üzmüş, uzun sürən xəstəlikdən sonra 1897-ci il oktyabrın 1-də doğma Şuşada gözlərini dünyaya əbədi yummuşdur. Dəfn mərasimi də Natəvana xalq sevgisinin necə böyük olduğunu göstərmiş, deyilənə görə əhali onun cənazəsini hörmət əlaməti olaraq Şuşadan Ağdama qədər piyada müşayiət etmişdi və Xan qızı "İmarət" adlandırılan soy qəbiristanlığında torpağa tapşırılmışdı. Vəfatı ilə bütün Azərbaycan və Qafqaz maarifçiləri, ziyalıları, mədəniyyət camiəsi dərin yasa bürünmüşdü. "Qafqaz", "Tərcüman" və digər qəzetlərdə Natəvan haqqında dərc edilən məqalələr şairənin daim qəlblərdə yaşayacağını dönə-dönə təsdiqləmişdir.

Əsrlər ötsə də, Natəvanın ruhu, sözü, əməlləri xalqın yaddaşında uca tutulur. Onun misilsiz xidmətləri dövlət tərəfindən hər zaman yüksək qiymətləndirilir. Bəstəkar Vasif Adıgözəlov onun şərəfinə "Natəvan" operasını, şair Məmməd Rahim "Natəvan" poemasını, dramaturq İlyas Əfəndiyev isə "Natəvan" pyesini yazmışdır. Bakıda heykəli, Şuşada büstü qoyulmuş, adına küçə, məktəb, klub və kitabxanalar salınmışdır. 2012-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə 180 illik yubileyi, 2016-cı ildə isə Heydər Əliyev Fondunun dəstəyi ilə Belçikanın Vaterloo şəhərində abidəsi ucaldılmışdır. 2019-cu ildə Nazirlər Kabinetinin qərarı ilə onun əsərləri dövlət varidatı elan edilmiş və bədii irsi rəsmi şəkildə qoruma altına alınmışdır. 2022-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Xurşidbanu Natəvanın 190 illik yubileyi azad Şuşada - onun doğulub boya-başa çatdığı, sözə nəfəs verdiyi müqəddəs torpaqlarda təntənə ilə qeyd edilmişdir.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**